Azərbaycan milli irsinin qızıl səhifəsi

Hacı Zeynalabdin Tağıyev Azərbaycan tarixində maarifçilik, xeyriyyəçilik və mədəni dirçəliş yolunda silinməz izlər qoymuş görkəmli şəxsiyyətlərdəndir. XIX əsrin sonu, XX əsrin əvvəllərində baş verən iqtisadi və ictimai-siyasi proseslərdə onun böyük rolu olmuşdur. O, sadəcə sərvət sahibi və iş adamı deyildi, həm də milli ruhun qoruyucusu, savadlı gələcəyin memarı və insanlıq örnəyi idi. Onun gördüyü işlər həm dövrünün, həm də müasir Azərbaycanın inkişafına həlledici təsir göstərmişdir.

Hacı Zeynalabdin Tağıyev 1838-ci ildə Bakıda kasıb bir ailədə anadan olmuşdur. Atası Tağı kişi daşyonan, anası isə evdar qadın idi. Kiçik yaşlarından həyatın çətinlikləri ilə üzləşən Zeynalabdin atasına kömək edərək daşyonma sənətinə yiyələnmişdir. Ancaq o, sadəcə fiziki əməkdən ibarət bir həyatla kifayətlənməyərək, daim öz biliklərini artırmağa can atırdı. Onun zəhmətkeşliyi və iradəsi qısa müddətdə diqqət çəkdi, kiçik sərmayə ilə inşaat işlərinə başladı.

Hacı Zeynalabdin Tağıyev təhsilin cəmiyyətin inkişafında əsas amil olduğuna inanırdı. Bu inancı ilə 1901-ci ildə Bakıda Qızlar Məktəbini təsis etdi. Bu müsəlman Şərqində qadınlar üçün açılmış ilk dünyəvi təhsil müəssisəsi idi. Məktəbin yaranması cəmiyyətdə böyük rezonansa səbəb olmuş, təqdirlə qarşılanmışdı. Məktəbin yaradılması üçün xeyriyyəçi 150 min rubl ayırmış, vəsaitin 125 mini təhsil resursları üçün, 25 mini isə binanın tikintisinə sərf edilmişdir. Məktəbin məzunları qadınların peşə təhsilinin təməlini qoymuşdur. Tağıyevin təşəbbüsü ilə açılan məktəb yalnız təhsil ocağı, eyni zamanda qadınların hüquqlarının müdafiəsi, onların cəmiyyət həyatında aktiv iştirakının təmin olunması üçün ilk addım idi. O, bu məktəbin fəaliyyətini maliyyələşdirməklə yanaşı, həm də onun tədris proqramlarının inkişafına xüsusi diqqət yetirirdi.

Tağıyev onlarla gəncin ali təhsil alması üçün təqaüdlər ayırmışdı. Bu tələbələr arasında sonralar Azərbaycanın görkəmli şəxsiyyətləri, o cümlədən Həsən bəy Ağayev, Nəriman Nərimanov, Əlimərdan bəy Topçubaşov və başqaları var idi. Hacı Zeynalabdin Tağıyev maarifçilik və xeyriyyəçilik fəaliyyəti ilə xalqın həm də mənəvi ehtiyaclarını qarşılamağa çalışmışdır. Onun gördüyü işlər, qoyduğu iz Azərbaycan cəmiyyətinin maariflənməsinə və inkişafına böyük töhfə vermişdir. Hacı Zeynalabdin Tağıyev xeyirxahlığın və millətə xidmətin rəmzidir.

Bakının neft bumu dövründə Tağıyev neft sənayesində ən nüfuzlu şəxsiyyətlərdən birinə çevrilmişdi. 1870-ci ildə çox da böyük olmayan ağ neft zavodunu satın almış, 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğvindən sonra "Şəriklər" birliyinin təsisçilərindən biri kimi həmin vaxt Bakıda keçirilmiş ilk müsabiqədə iştirak etmişdi. Bir sıra başqa şirkətlər kimi, bu birlik də müsabiqə qalibi oldu. 1873-cü ildə H.Z.Tağıyev müstəqil olaraq neft işində bəxtini sınamaq qərarına gəlir. O, şəriki ilə birlikdə Bibiheybətdə torpaq sahəsi alaraq quyu qazır. 1873-cü ildə "H.Z.Tağıyev neft sənayesi firması" yaradılır. Uzun müddət qazma işləri aparılmasına baxmayaraq, quyudan neft çıxmır. Lakin ruhdan düşmür və inamla işləri davam etdirir, hətta qazma işlərində şəxsən iştirak edir. 1878-ci ilin əvvəlində H.Z.Tağıyevin buruğunda çoxdan gözlənilən neft fəvvarə vurur. Hacı Bakının ən varlı adamlarından birinə, onun az tanınan mədəni isə böyük müəssisəyə çevrilir. Həmin illərdə Bakıya səfər etmiş böyük rus alimi D.Mendeleyev yerli sahibkarlar haqqında deyib: "Kokorevdən sonra burada birinci yeri hökumət tədbirləri və Bakıda Burmeystr, Hacı Tağıyev, Lens və L.E.Nobel kimi xadimlərin səyləri tutur". Bununla yanaşı, Hacı Zeynalabdin beynəlxalq bazarlarla əlaqələr quraraq Azərbaycan neftinin dünya səhnəsinə çıxmasına nail olmuşdur. Onun yaratdığı müəssisələr yalnız iqtisadi dəyər daşımır, eyni zamanda minlərlə insanı işlə təmin edirdi.

Onun sahibkarlıq fəaliyyəti neft hasilatı ilə yanaşı, toxuculuq fabrikləri, ayaqqabı istehsalı müəssisələri və emal zavodları açaraq, Azərbaycanın iqtisadi inkişafına böyük töhfələr vermişdi. İri neft sahibkarı kimi H.Z.Tağıyev bir neçə nəqliyyat vasitələrinə malik idi. Onun altı paroxod və dəmir yolu vaqon-sisternləri parkı var idi.

Rusiya toxuculuq müəssisələrinin xam ipliyə olan tələbatı onu pambıq parça məhsulları istehsal edən fabrik tikməyə sövq etdi. 1897-ci ilin oktyabrında Bakıda "Lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti" təsis edildi. Cəmiyyət xaricdən gətirilən müasir texnika ilə təchiz olunmuş toxuculuq fabriki tikməyə başladı. Müəssisənin əsas obyektlərinin inşası 1901-ci ildə başa çatdırıldı. Bu, Azərbaycanda təkcə qiymətli ixrac məhsulları və külli miqdarda gəlir verən yeni sənaye sahəsinin yaradılması deyil, həm də minlərlə işsizin işlə və pulsuz evlə təmin edilməsi demək idi. Fabrik Bakının Əhmədli kəndində işə salındı. Onun nəzdində fəhlə və qulluqçular üçün pulsuz evlər və öz elektrik stansiyası olan qəsəbə, o cümlədən ambulatoriya tikilmiş, yaşlı fəhlələr üçün məktəb və kurslar açılmışdı. "Nobel qardaşları" şirkətindən, istehsal artdıqca genişlənən zavodlardan fərqli olaraq H.Z.Tağıyevin fabriki məşhur memar İ.Qoslavski tərəfindən əvvəlcədən vahid istehsal-yaşayış kompleksi kimi inşa edilmişdi. Bu, Bakıda xüsusi planla tikilən ilk fəhlə qəsəbəsi idi.

H.Z.Tağıyevin sahibkarlıq fəaliyyəti haqqında bəhs edərkən onun elektroenergetika, rabitə, yeyinti sənayesi, torpaq sahələrinin, mülklərin və s. daşınmaz əmlakın alqı-satqısı ilə bağlı əməliyyatlar, həmçinin bank işində fəaliyyətini də qeyd etmək olar.

Hacı Zeynalabdin Tağıyev dəfələrlə Bakı Dumasının üzvü seçilərək şəhərin sosial və infrastruktur problemlərinin həllində fəal iştirak etmişdir. Şəhərin inkişafı ilə bağlı təkliflər irəli sürmüş və həmin təkliflərin həyata keçməsi üçün maliyyə dəstəyi göstərmişdir. Onun təşəbbüsü ilə Bakıda ilk teatr binası inşa edilmiş, at-dəmir yolu (konka) istifadəyə verilmiş, həmçinin şəhərin mərkəzində yerləşən "Tağıyev pasajı" adlanan Ticarət Evi fəaliyyətə başlamışdır.

H.Z.Tağıyev şəhər sakinlərinin ən böyük problemlərindən biri olan içməli su məsələsinin həllində də önəmli rol oynamışdır. Hələ 1874-cü ildə öz vəsaiti hesabına Bakı şəhərinə su kəməri çəkdirdiyinə görə "Səyinə görə" yazılmış gümüş medalla təltif edilmişdi. 1901-ci ildə ingilis mühəndisi V.Lindleyin layihəsi əsasında yeraltı su mənbələrinin tapılması üçün 25 min rubl ayırmış və bu layihə nəticəsində 1917-ci ildə Bakıya içməli su gətirilmişdir.

Maarifçilik Hacı Zeynalabdin Tağıyevin fəaliyyətinin mərkəzində dayanırdı. O, müxtəlif təhsil ocaqlarının, o cümlədən Bakı Mariinski Qadın Gimnaziyasının, orta texniki məktəbin, Aleksandra rus-müsəlman qız məktəbinin və Kommersiya məktəbinin fəxri hamisi olmuşdur. Onun təşəbbüsləri yalnız Bakı ilə məhdudlaşmamış, Gəncə, Şamaxı, Naxçıvan, Tiflis, Dərbənd və digər bölgələrdə də məktəblərin yaradılması və saxlanılmasına dəstək olmuşdur.

H.Z.Tağıyev milli ruhun və mədəniyyətin qorunmasını hər zaman vacib hesab etmiş, teatr sənətinin inkişafına böyük dəstək vermişdi. 1908-ci ildə Bakıda dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının səhnələşdirilməsində onun rolu xüsusilə əlamətdardır. Bu, Azərbaycan mədəniyyətinin tarixində yeni dövrün başlanğıcı idi. Hacı Zeynalabdinin maliyyələşdirdiyi "Kaspi" qəzetində cəmiyyətin problemləri, sosial bərabərlik və təhsil məsələləri işıqlandırılırdı. Dövri nəşrlərə öz münasibətini bildirən H.Z.Tağıyev deyirdi: "Mən mətbuatı xalqın mənəvi-maarif və iqtisadi cəhətdən yüksəlişinin güclü vasitələrindən biri kimi görürəm, buna görə də qəzetlərə maddi yardım göstərməyi öz mənəvi borcum sayıram". 1895-ci ildə H.Z.Tağıyev "Kaspi" qəzetini satın aldı. 1905-ci ildən "Həyat" qəzeti, 1906-cı ildən "Füyuzat" jurnalı H.Z.Tağıyevin maddi köməyi ilə nəşr olunmağa başladı.

1873-cü ildə Azərbaycan tarixində əlamətdar hadisə baş verdi - milli teatrın əsası qoyuldu. Onun təşəkkülündə H.Z.Tağıyevin böyük rolu olmuşdur. Belə ki, xalqın maariflənməsində, mədəni səviyyəsinin və doğma dilinin inkişafında teatrın əhəmiyyətini yüksək qiymətləndirən Tağıyev 1883-cü ildə öz vəsaiti hesabına Azərbaycanda ilk teatr binasını tikdirdi. O, 1890-cı ildə 80 min rubl xərcləyərək binanı yenidən qurdu. Bakının mərkəzində yerləşən teatr binası geniş, dövrünə görə yüksək səviyyədə təchiz olunmuş, gözəl tərtibata malik idi. Maraqlıdır ki, teatrda qadınlar üçün ayrıca loja nəzərdə tutulmuşdu. Teatrın açılışı milli mədəniyyət tarixində mühüm hadisə oldu. Azərbaycan truppaları çoxdan gözlədikləri səhnəni əldə etdilər. H.Z.Tağıyev, sözün əsl mənasında, incəsənət vurğunu idi. Tez-tez tək, yaxud da ailəsi ilə birgə teatr tamaşalarına gedər, istər milli, istərsə də Avropa rəsm əsərləri ilə maraqlanardı. H.Z.Tağıyevin məşhur rəssamların əsərlərindən ibarət zəngin kolleksiyası indiki Rüstəm Mustafayev adına İncəsənət Muzeyinin fondlarında saxlanılır.

1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaradılmasını alqışlayan H.Z.Tağıyev müstəqil milli dövlətçilik quruculuğunu dəstəkləmiş, təntənəli dövlət tədbirlərində iştirak etmişdir. O, yüksək səviyyəli dövlət qonaqlarını öz yaşayış mülkündə qonaq etmişdir. Məhz Cümhuriyyət dövründə H.Z.Tağıyev ən böyük arzularından birinin - Bakıda ali təhsil ocağının açılmasının şahidi oldu. 1919-cu il 1 sentyabr tarixli qanunla Bakı Universiteti təsis edildi. Zeynalabdin də universitetin açılışına dəvət olunmuş və başqa azərbaycanlı sahibkarlar kimi, maddi yardımını əsirgəməmişdi. Böyük xeyriyyəçi Bakı Universitetinin xeyrinə Ticarət Evinin gəlirlərindən istifadə etməyi təklif etdi. 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin hökumətinin ali təhsil almaq üçün xarici ölkələrə göndərdiyi yüz gəncə H.Z.Tağıyev maddi kömək göstərmişdi.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra H.Z.Tağıyevə məxsus bütün yaşayış və ictimai binalar, sənaye müəssisələri müsadirə olundu. Hökumət ona ailəsi ilə birgə Mərdəkandakı mülkündə yaşamağa icazə vermişdi. Xalq Komissarları Sovetinin sədri N.Nərimanov Azərbaycanda fəaliyyəti dövründə onu bütün təzyiqlərdən qoruyurdu. H.Z.Tağıyev 1924-cü il sentyabrın 1-də vəfat etmiş, böyük hörmət bəslədiyi Axund Mirzə Abuturabın qəbri yaxınlığında dəfn edilmişdir. N.Nərimanov Moskvaya getdikdən sonra H.Z.Tağıyevin başsız qalmış ailəsi İçərişəhərdəki kiçik evlərinin birində yaşamağa məcbur olmuşdu. Sonrakı illərdə H.Z.Tağıyevin adı uzun müddət unudulmağa məhkum edildi. Ailə üzvləri təqiblərə, bir qismi repressiyalara məruz qaldı. H.Z.Tağıyev öz layiqli qiymətini yalnız 1980-ci illərin sonunda aldı. Onun adına küçələr, təhsil, sənaye müəssisələri yarandı, şərəfinə abidələr ucaldıldı.

Hacı Zeynalabdin Tağıyev zəhmətsevərliyi və əzmkar fəaliyyəti ilə yalnız yaşadığı dövrün deyil, həm də müasir Azərbaycanın qürur mənbəyidir. Onun irsi milli şüurun oyanışında, maarifçiliyin inkişafında və iqtisadi tərəqqidə mühüm rol oynamışdır. Tağıyev xalq arasında böyük ehtiramla xatırlanır. Onun adı mədəniyyət, maarif və iqtisadi sahələrdə daim anılır. Bu gün Tağıyevin adını daşıyan küçələr, muzeylər və məktəblər onun əziz xatirəsini yaşadır. Onun həyatı əslində Azərbaycan xalqının tarixində maarifçilik, vətənpərvərlik və xeyriyyəçiliklə bağlı yazılmış dastandır.

Yusif ŞƏRİFZADƏ,
"Respublika".